# Müsabiqənin Əsasnaməsi

Bu Əsasnamə **“Ailə dəyərləri, qadın və uşaq hüquqlarının təbliği üzrə ən fəal bloger”** mövzusu üzrə **II Bloger Müsabiqəsinin** məqsədlərini, müsabiqənin keçirilməsi şərtlərini, qaliblərin müəyyənləşdirilməsi və mükafatlandırılması qaydalarını tənzimləyir.

**Müsabiqənin təşkilatçısı:**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

**Müsabiqənin keçirilmə məqsədləri:**

- Azərbaycan ailə dəyərlərinin, uğurlu qadın modelinin və istedadlı uşaqların sosial şəbəkə blogerləri vasitəsilə təbliği;
- Qadın və uşaq məsələlərinin təşviqi istiqamətində ictimai aktiv gənclərlə əməkdaşlığın gücləndirilməsi;
- Sosial medianın imkanlarının məişət zorakılığı və gender əsaslı zorakılıq halları ilə mübarizəyə yönəldilməsi;
- Nümunəvi ailələrin, qadın və uşaqların sosial media vasitəsilə təbliği istiqamətində yeni innovativ imkanların təşviqi.

**Müsabiqə iştirakçıları:**

Müsabiqədə bu əsasnamədə müəyyən edilmiş müvafiq qaydada qeydiyyatdan keçmiş sosial şəbəkə blogerləri iştirak edə bilər.

**Müsabiqənin şərtləri:**

Müsabiqə iştirakçısı "Anket formasını" dolduraraq 10 oktyabr 2023-cü il tarixinədək **informasiya.aqupdk@scfwca.gov.az** elektron ünvanına göndərməlidir.

**Müsabiqə qaliblərinin seçilməsi üçün meyarlar:**

- Maraqlı və fərqli kontent hazırlamaq üzrə;
- Maarifləndirici materiallar hazırlamaq və yaymaq üzrə;
- Cəmiyyətə təsir imkanlarına görə (paylaşımların bəyənmə və baxış sayına əsasən);
- İnsanların etimad göstəricisinə görə;
- Mövzu ilə bağlı paylaşım statistikaları üzrə.

Müsabiqədə iştirak edən blogerlərlə bağlı məlumatların toplanması, monitorinqi və müsabiqəyə uyğunluğunun yoxlanılması məqsədilə Dövlət Komitəsi tərəfindən müsabiqənin **Təşkilat Komitəsi** yaradılıb.

Müsabiqədə iştirak edən blogerlərin fəaliyyətinin qiymətləndirilməsi **Münsiflər heyəti** tərəfindən aparılacaqdır. Münsiflər heyətinin tərkibində müxtəlif qurumların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, gender üzrə ekspertlər, jurnalistlər təmsil olunur.

**Mükafatlandırma:**

- Aktiv fəaliyyəti ilə seçilən blogerlər **"Ailə dəyərləri, qadın və uşaq hüquqlarının təbliği üzrə ən fəal bloger"** kuboku, hədiyyələr və diplomlarla mükafatlandırılacaqdır.
- Müsabiqənin mükafatlandırma mərasiminin 2023-cü ilin dekabr ayında dövlət rəsmilərinin, ictimaiyyət nümayəndələrinin və medianın iştirakı ilə keçirilməsi nəzərdə tutulur.

*Əlavə məlumat üçün: (012) 498-80-93*